# “ATABANK”
# Açıq Səhmdar Cəmiyyəti

**Müstəqil Auditor Rəyi**

31 dekabr 2003-cü il
**Maliyyə Hesabatları**

# ATABANK ASC

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MÜSTƏQİL AUDİTOR RƏYİ | 1 |
| 31 DEKABR 2003-CÜ İL TARİXİNƏ MALİYYƏ HESABATLARI: | |
| Gəlir və xərclər hesabatı | 2 |
| Balans hesabatı | 3 |
| Səhmdar kapitalında dəyişikliklər haqqında hesabat | 4 |
| Nəğd vəsaitin hərəkəti haqqında hesabat | 5 |
| Maliyyə hesabatlarına qeydlər | 6-33 |

Deloitte.

Deloitte & Touche MMC
4-cü mərtəbə
Ləndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azərbaycan

Tel: + 994 (0) 12 498 2970
Faks: + 994 (0) 12 498 9805
www.deloitte.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"ATABANK" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə heyətinə:

Biz 31 dekabr 2003-cü il tarixinə hazırlanmış və əlavə edilən "ATABANK" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Bank") balans hesabatının və həmin tarixdə başa çatmış il üzrə gəlir və xərclər və nəğd vəsaitin hərəkəti və səhmdar kapitalında dəyişikliklər haqqında hesabatların auditini yerinə yetirmişik. Bu maliyyə hesabatlarına Bankın müdiriyyəti cavabdehdir. Biz bu maliyyə hesabatları üzrə öz rəyimizə görə məsuliyyət daşıyırıq. 31 dekabr 2002-ci il tarixinə bitmiş il üzrə gəlir və xərclər haqqında və səhmdar kapitalında dəyişikliklər haqqında hesabatlarının auditi aparılmayıb.

Biz auditimizi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirmişik. Həmin Standartlar tələb edir ki, biz yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks etdirilən məlumatlarda əhəmiyyətli səhvlərin olmamasına kifayət qədər əmin olaq. Audit maliyyə hesabatlarında əks etdirilən məbləğləri və açıqlamaları təsdiq edən sübutların test üsulu ilə yoxlanılmasından ibarətdir. Audit yoxlamasına həmçinin Bankın rəhbərliyi tərəfindən tətbiq edilmiş mühasibat prinsiplərin və yerinə yetirilmiş təqribi hesablamaların təyin edilməsi və eyni zamanda ümumi maliyyə hesabatların təqdiminin qiymətləndirilməsidə daxildir. Biz hesab edirik ki, apardığımız audit nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

3-cü qeyddə daha geniş izah olunduğu kimi, əlavə olunmuş maliyyə hesabatlarında 31 dekabr 2002-ci il tarixinə nəğd vəsaitin hərəkəti haqqında hesabat təqdim olunmamışdır. Bu hesabatın müqayisəli göstəricilər şəklində təqdimatı Beynəlxalq Maliyyə Hesabatı Standartları ilə tələb olunur.

Hesab edirik ki, yuxarıda qeyd olunduğu kimi, maliyyə hesabatların natamam təqdimatı ilə nəticələnən, 31 dekabr 2002-ci il tarixinə nəğd vəsaitin hərəkət haqqında hesabatının təqdim olunmamasından başqa, Bankın maliyyə hesabatları onun 31 dekabr 2003-cü il tarixinə maliyyə vəziyyətini və bu tarixdə bitən il üzrə fəaliyyət nəticələrini və nəğd vəsaitin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun əks etdirir.

Deloitte & Touche.

26 yanvar 2004-cü il

## ATABANK ASC

### 31 DEKABR 2003-CÜ İL
### GƏLIR VƏ XƏRCLƏR HESABATI
### *(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|---|
| Faiz gəliri | 4, 22 | 5,517,433 | 2,471,210 |
| Faiz xərci | 4, 22 | (1,402,091) | (1,016,722) |
| MÜMKÜN SSUDA ZƏRƏRLƏRİNDƏN EHTİYATIN GERİ ÖDƏNİLMƏSİNDƏN/ (EHTİYYAT YARADILMASINDAN) ƏVVƏL XALİS FAİZ GƏLİRİ | | 4,115,342 | 1,454,488 |
| Mümkün ssuda zərərlərinə qarşı ehtiyatın geri ödənilməsi/ (ehtiyat yaradılması) | 5 | 174,736 | (595,939) |
| XALİS FAİZ GƏLİRİ | | 4,290,078 | 858,549 |
| Xarici valyuta əməliyatları üzrə xalis gəlir | 6 | 86,364 | 248,802 |
| Xidmət haqqı və komisyon gəliri | 7, 22 | 1,458,191 | 599,150 |
| Xidmət haqqı və komisyon xərci | 7 | (214,681) | (132,547) |
| FAİZ OLMAYAN XALİS GƏLİR | | 1,329,874 | 715,405 |
| ƏMƏLİYYAT GƏLİRLƏRİ | | 5,619,952 | 1,573,954 |
| ƏMƏLİYYAT XƏRCLƏRİ | 8, 22 | (4,732,664) | (1,615,934) |
| MƏNFƏƏT VERGİSİNDƏN ƏVVƏL MƏNFƏƏT / (ZƏRƏR) | | 887,288 | (41,980) |
| Mənfəət vergisi | 9 | (357,622) | (63,266) |
| XALİS MƏNFƏƏT/ (ZƏRƏR) | | 529,666 | (105,246) |

**İdarə heyəti tərəfindən**

**Sədr** ________________ **Baş Mühasib** ________________

6-33 səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatların ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 1-ci səhifədə təqdim olunmuşdu

## ATABANK ASC

### 31 DEKABR 2003-CÜ İL
### BALANS HESABATI
### *(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2003 | 2002 |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Nəğd pul və Azərbaycan Respublikasının Milli Bankında olan nəğd vəsaitlər | 10 | 6,951,155 | 1,366,563 |
| Mümkün ssuda zərərləri üzrə ehtiyat çıxılmaqla banklara verilmiş ssudalar və avanslar | 11 | 2,077,577 | 2,809,522 |
| Mümkün ssuda zərərləri üzrə ehtiyat çıxılmaqla müştərilərə verilmiş ssudalar və avanslar | 12, 22 | 44,206,625 | 13,089,011 |
| İnvestisiya yönümlü qiymətli kağızlar: | | | |
| - satışı mümkün olan qiymətli kağızlar | 13 | 5,200,000 | 200,000 |
| Yığılmış köhnəlmə çıxılmaqla əsas və qeyri-maddi aktivlər | 14 | 9,433,394 | 5,826,144 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 9 | 4,136 | 18,253 |
| Sair aktivlər | 15 | 68,099 | 39,736 |
| CƏMİ AKTİVLƏR | | 67,940,986 | 23,349,229 |
| **ÖHDƏLİKLƏR VƏ SƏHMDAR KAPİTALI** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklardan və başqa institutlardan alınmış depozitlər | 16 | 11,742,705 | 2,446,500 |
| Müştəri hesabları | 17, 22 | 21,865,522 | 4,507,464 |
| Buraxılmış borc öhdəlikləri | 18 | 7,290,837 | - |
| Mənfəət vergisi öhdəlikləri | 9 | 296,270 | 44,147 |
| Sair öhdəliklər | 19 | 528,689 | 663,821 |
| Cəmi öhdəliklər | | 41,724,023 | 7,661,932 |
| SƏHMDAR KAPİTALI: | | | |
| Səhmdar kapitalı | 20 | 25,000,000 | 15,000,000 |
| Ehtiyatlar | | 1,216,963 | 687,297 |
| Cəmi səhmdar kapitalı | | 26,216,963 | 15,687,297 |
| CƏMİ ÖHDƏLİKLƏR VƏ SƏHMDAR KAPİTALI | | 67,940,986 | 23,349,229 |

**İdarə heyəti tərəfindən**

____________________________ ____________________________

**Sədr** **Baş Mühasib**

6-33 səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatların ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 1-ci səhifədə təqdim olunmuşdur.

# ATABANK ASC

## 31 DEKABR 2003-CÜ İL
## SƏHMDAR KAPİTALINDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
*(min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Yenidən qiymətləndirmə | Gəlir ehtiyatı | Ümumi səhmdar kapitalı |
|---|---|---|---|---|
| **31 dekabr 2001-ci il tarixinə qalıq (auditi aparılmayıb)** | 10,000,000 | 586,695 | 205,848 | 10,792,543 |
| Səhmdar kapitalının artımı | 5,000,000 | - | - | 5,000,000 |
| Xalis zərər (auditi aparılmayıb) | - | - | (105,246) | (105,246) |
| **31 dekabr 2002-ci il tarixinə qalıq** | 15,000,000 | 586,695 | 100,602 | 15,687,297 |
| Səhmdar kapitalının artımı | 10,000,000 | - | - | 10,000,000 |
| Xalis mənfəət | - | - | 529,666 | 529,666 |
| **31 dekabr 2003-cü il tarixinə qalıq** | 25,000,000 | 586,695 | 630,268 | 26,216,963 |

**İdarə heyəti tərəfindən**

**Sədr** **Baş Mühasib**

6-33 səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatların ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 1-ci səhifədə təqdim olunmuşdur.

## ATABANK ASC

### 31 DEKABR 2003-CÜ İL
### NƏĞD VƏSAİTİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
### *(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 2003 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN NƏĞD VƏSAİTİN HƏRƏKƏTİ:** | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 887,288 |
| Düzəlişlər: | | |
| Mümkün ssuda zərərlərinə qarşı ehtiyatın geri ödənilməsi | | (174,736) |
| Əsas və qeyri-maddi aktivlər üzrə köhnəlmə və bərpa dəyəri ehtiyatı | | 692,249 |
| Əsas vəsaitlərin satışından zərər | | 4,021 |
| Hesablanmış faizlər üzrə xalis dəyişiklik | | (1,084,707) |
| Əməliyyat aktivlərin və öhdəliklərin məbləğlərində dəyişikliklərdən əvvəl nəğd vəsait | | 324,115 |
| Əməliyyat aktivlərinin və öhdəliklərin məbləğlərində dəyişikliklər | | |
| Əməliyyat aktivlərinin (artması)/azalması: | | |
| Azərbaycan Respublikasının Milli Bankında minimal ehtiyat depoziti | | (1,794,778) |
| Banklara verilmiş ssudalar və avanslar | | 2,038,815 |
| Müştərilərə verilmiş ssudalar və avanslar | | (29,721,401) |
| Digər aktivlər | | (28,363) |
| Əməliyyat öhdəliklərin artması/(azalması): | | |
| Banklardan alınmış depozitlər | | 9,296,205 |
| Müştəri hesabları | | 17,280,161 |
| Sair öhdəliklər | | (135,132) |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyəti nəticəsində nəğd vəsaitin istifadə edilməsi | | (2,740,378) |
| Ödənilmiş mənfəət vergisi | | (91,382) |
| Əməliyyat fəaliyyətində nəğd vəsaitin xalis istifadə edilməsi | | (2,831,760) |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN NƏĞD VƏSAİTİN HƏRƏKƏTİ:** | | |
| Əsas və qeyri-maddi aktivlərin alınması | | (4,303,520) |
| Satışı mümkün olan borc öhdəliklərin alınması | | (2,000,000) |
| Satışı mümkün olan qiymətli kağızların alınması | | (3,000,000) |
| İnvestisiya fəaliyyətindən nəğd vəsaitin xalis istifadə edilməsi | | (9,303,520) |
| **MALİYYƏLƏ FƏALİYYƏTİNDƏN NƏĞD VƏSAİTİN HƏRƏKƏTİ:** | | |
| Səhmdar kapitalın artımı | | 10,000,000 |
| Buraxılmış borc öhdəliklərindən mədaxil | | 7,374,560 |
| Buraxılmış borc öhdəliklərinin geri ödənilməsi | | (142,596) |
| Maliyyə fəaliyyətindən nəğd vəsaitin əldə edilməsi | | 17,231,964 |
| NƏĞD PUL VƏ ONA BƏRABƏR TUTLAN VƏSAİTİN XALİS ARTIMI | | 5,096,684 |
| İLİN ƏVVƏLİNƏ NƏĞD PUL VƏ ONA BƏRABƏR TUTULAN VƏSAİT | 10 | 1,078,134 |
| İLİN AXIRINA NƏĞD PUL VƏ ONA BƏRABƏR TUTULAN VƏSAİT | 10 | 6,174,818 |

31 Dekabr 2003-cü il tarixinə bitən il ərzində Bank tərəfindən nəğd şəkildə ödənilmiş və qəbul olunmuş faiz məbləği müvafiq olaraq 1,265,321 min manat və 4,295,956 min manat hesablanmışdır.

**İdarə heyəti tərəfindən**

**Sədr** **Baş Mühasib**

6-33 səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatların ayrılmaz hissəsidir. Müstəqil Auditor Rəyi 1-ci səhifədə təqdim olunmuşdur.

## 1. ÜMUMI MƏLUMAT

"AtaBank"Açıq Səhmdar Cəmiyyəti (bundan sonra "Bank") 1993-cü il tarixində Azərbaycan Respublikasında yaranmışdı. 7 oktyabr 2002-ci il tarixində Bank Açıq Səhmdar Cəmiyyəti "ATABANK" formasında yenidən qurulub. Bankın hüquqi ünvanı: Ş. Bədəlbəyli küç. 102, Bakı şəh., Azərbaycan. Bank Azərbaycan Respublikasının Milli Bankı (ARMB) tərəfindən tənzim olunur və 02-10/557 nömrəli ümumi bank lisenziyası əsasında fəaliyyət göstərir. Bankın əsas biznes fəaliyyəti ödənişlər və pul köçürmələri, kommersiya xidmətləri, xarici valyuta alqı-satqısı və ssuda verməkdən ibarətdir. Bankın Azərbaycanda 2 filialı fəaliyyət göstərir.

Bankın 31 dekabr 2003-cü və 31 dekabr 2002-ci il tarixinə işçilərin sayı müvafiq olaraq 46 və 30 nəfər olmuşdur.

31 December 2003-cü və 31 dekabr 2002-ci il tarixinə aşağidakı səhmdarlar Bankın səhmlərinin 5%-dən çox hissəsinə malikdirlər:

| | **2003**<br>**Faiz, %** | **2002**<br>**Faiz, %** |
|---|---|---|
| AtaHolding (əlaqəli tərəflər) | 76 | - |
| Fiziki şəxslər | 24 | 99 |
| Digər | - | 1 |
| Cəmi | 100 | 100 |

Bu maliyyə hesabatlarının çap olunması 26 yanvar 2004-cü il tarixdə İdarə Heyəti tərəfindən təsdiq olunmuşdur.

## 2. TƏQDİMAT ƏSASI

***Mühasibat əsası*** – Bankın maliyyə hesabatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarına əsasən hazırlanmışdır (BMHS). Xüsusən göstərilən hallar istisna olmaqla başqa bütün hallarda məbləğlər min Azərbaycan Manatı ilə (min manat) göstərilmişdir. Bu maliyyə hesabatları hesablama üsulu ilə, satışı mümkün olan investisia yönümlü qiymətli kağızların ədalətli dəyərini nəzərə almaqla ilkin dəyər prinsipinə əsaslanaraq hazırlanmışdır.

Bank öz mühasibat yazılışlarında bir çox hallarda BMHS uyğun olan Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun aparır. Əlavə edilən maliyyə hesabatları həmin mühasibat yazılışları əsasında hazırlanmış və BMHS-na uyğunlaşdırılmışdır.

Maliyyə hesabatlarının BMHS-na uyğun hazırlanması tələb edir ki, rəhbərlik tərəfindən müəyyən təqribi hesablamalar və ehtimallar tətbiq edilsin. Bu təqribi hesablama və ehtimallar maliyyə hesabatı tarixinə əks olunan aktiv və öhdəliklərin göstəricilərinə, şərti aktiv və öhdəliklərin açıqlamalarına və hesabat dövründə göstərilən gəlir və xərclər məbləğlərinə təsiri vardır. Faktiki nəticələr bu təqribi hesablamalardan fərqlənə bilər. Dəyişikliklərə xüsusən məruz ola bilən göstəricilərə mümkün ssuda zərərlərinə qarşı ehtiyatın və maliyyə alətlərin bərpası və ədalətli dəyərinin hesablanması aiddir.

***Ölçü valyutası*** – Təqdim olunan maliyyə hesabatlarında ölçü vahidi Azərbaycan Respublikası manatıdır (manat).

## 3. MÜHÜM MÜHASİBAT PRİNSİPLƏRİ

***Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilkin tətbiqi*** – 31 dekabr 2002-ci il tarixinə olan məlumatlar Bank tərəfindən BMHS uyğun təqdim olunmuş ilk maliyyə hesabatlarıdır. Əvvələr Bankın maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat qaydalarına əsasən aparılıb. Bank 31 Dekabr 2002-ci il tarixinə məqsədyönlü olmadığından nəğd vəsaitin hərəkəti haqqında hesabat təqdim etməmişdir, bu isə Beynəlxalq Maliyyə Hesabatı Standartlarından kənarlaşmadır.

***Digər müəssisələrə qoyulan investisiyalar*** – Bankın müəssisə səhmlərində olan sərmayəsi ümumi səhmdar kapitalının 20%-dən az olduğu halda, ədalətli və yaxud investisiyaların ədalətli dəyərini təyin etmək mümkün olmadıqda ilkin alış dəyəri ilə hesablanır. Əgər investisiyanın dəyəri müəyyən olunmursa rəhbərlik mütəmadi olaraq bu sərmayələrin xalis dəyərini müəyyənləşdirir və lazım olduqda mümkün zərərlərə qarşı ehtiyat yaradır.

***Maliyyə alətlərinin tanınması və ölçülməsi*** – Bank maliyyə aktivləri və öhdəliklərini yalnız və yalnız onlar maliyyə alətləri üzrə müqavilə şərtlərinin qarşı tərəfi kimi çıxış etdikdə hesabatında əks edir. Maliyyə aktivləri və öhdəliklərinin adi alqı-satqısı müntəzəm olaraq əməliyyat tarixinə tanınır.

Maliyyə aktivləri və öhdəlikləri ilkin olaraq alış dəyəri ilə hesablanır hansıki, alqı-satqı əməliyyatı üzrə xərclər daxil olmaqla, verilmiş və ya qəbul olunmuş məbləğlərin ədalətli dəyəri ilə ölçülür. Bu əməliyyatlar üzrə yenidən ölçmə mexanizmi üçün mühasibat qaydaları aşağıdakı münasib mühasibat qaydalarında öz əksini tapmışdır.

***Nəğd pul və ona bərabər tutulan vəsaitlər*** – Nəğd pul və ona bərabər tutulan vəsaitlərə nəğd pul, ARMB-da olan məhdudiyyəti olmayan hesablarda qalıqlar və 90 günlük ödəmə vaxtı olan müddətli depozitlər, İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrdə yerləşdirilən banklara verilmiş avanslar, kredit kartları əməliyyatları üzrə depozitlər istisna olmaqla. Nəğd pul hərəkətini müəyyənləşdirilməsi məqsədi ilə ARMB tərəfindən tələb olunan minimal ehtiyat qoyuluşları onların istifadəsi üzrə mövcud olan məhdudiyyətlərə görə nəğd vəsaitlərə daxil olunmur (Qeyd 10).

***Banklara verilmiş ssuda və avanslar***– Bank işinin normal gedişində digər banklara müxtəlif vaxt aralığı ilə ssuda və depositlər verir. Bank tərəfindən verilmiş sabit ödəmə vaxtı olan depozit və ssudalar mümkün ssuda zərərlərinə qarşı ehtiyat çıxılmaqla amortizasiya edilən dəyərlə qeydə alınır. Sabit ödəmə vaxtı olmayanlar isə alış dəyəri ilə hesablanır. Kredit təşkilatları tərəfindən veriləcək məbləğlər ehtiyat daxil olmaqla xalis dəyər ilə hesablanır.

***Verilmiş ssudalar*** – Bunlar Bank tərəfindən vəsaitlərin borc alana birbaşa verilməsi nəticəsində yaranan maliyyə aktivlərdir.

Bank tərəfindən verilmiş ssudalar yuxarıda göstərilmiş qayda ilə tanınır. Nominal məbləğ ilə amortizasiya olunmuş dəyər arasında fərq ssuda məbləği verilən dövrdə bazar göstəricilərindən istifadə etməklə diskaunt edildikdən və gəlir və zərərlər hesablandıqdan sonra tanınır.
Bank tərəfindən verilmiş sabit ödəmə vaxtı olan ssudalar mümkün ssuda zərərlərinə qarşı ehtiyat çıxılmaqla amortizasiya edilən dəyərlə qeydə alınır. Sabit ödəmə vaxtı olmayanlar isə aliş dəyəri ilə hesablanır. Müştərilərə verilən məbləğlər ehtiyat daxil olmaqla xalis dəyərlə hesablanır.

***Ssudaların silinməsi*** – Ssudalar üzrə təminatların Bankın sahibliyinə keçdiyi və ssudaların və avansların ümidsiz borclara çevrilməsi halda onlar mümkün ssuda zərərləri üzrə ehtiyatlara qarşı silinirlər. Qanunvericiliyə əsasən ssudalar Səhmdarlar Şurası və xüsusi hallarda münasib məhkəmə qərarı əsasında silinir.

***Faizlərin hesablanmaması*** – Faizlər üzrə ödənişlər 90 gündən artıq müddət ərzində yubadıldığı halda belə ssudalara qarşı hesablanma üsulunun tətbiqi dayandırılır. Tam ödəmə şübhə altında olduğu halda faizdən gələn gəlirlər tanınmır. Borc götürənin bundan sonrakı ödəmələri onunla razılaşmadan asılı olaraq faizlərin həm əsas borcun həm də ödənilməyən faiz məbləğinə hesablana bilər. Borcun əsas məbləğinin və hesablanmış faiz məbləğinin ödənilməsi razılaşdırıldıqda, borcun əsas məbləğinin və faizlərinin ödənilməsi əvvəlki razılaşdırılmış dövrə uyğun bərpa oluna bilər.

***Mümkün zərərlər üzrə ehtiyatlar –*** Bank ilkin və ya amortizasiya olan dəyəri ilə tanınan maliyyə aktivlərinin razılaşdırılmış müqavilə əsasında borc və faiz məbləğinni yığa bilməyəcəyini yəqinləşdirdikdə mümkün zərərlər üçün ehtiyatlar yaradır. Mümkün zərərlər üzrə ehtiyatlar, maliyyə vəsaitini ilkin dəyəri və cari faiz ilə diskontlaşdırılan zəmanət və girovların bərpa oluna bilən məbləği daxil olmaqla, gələcək nəğd vəsaitin cari dəyəri və alış dəyəri arasındakı fərq kimi hesablanır.

Mümkün ssuda zərərlər üzrə ehtiyatların müəyyən edilməsi ssuda portfelin təhlilinə əsaslanır və rəhbərliyin fikrinə əsasən ssuda portfelinə məxsus zərərlərinə kifayət olan təminat məbləğini əks etdirir. Xüsusi ehtiyat riskli aktivlərin ətraflı qiymətləndirməsi nəticəsində yaradılır. Əlavə olaraq, ehtiyat, keçmiş təcrübə göstərdiyi kimi ssuda portfelinə məxsus olan, xüsusən müəyyən edilməmiş potensial risklərin dəyərləndirməsi üçün yaradılır.

Mümkün ssuda zərərləri üzrə ehtiyatın ümumi dəyişməsi gəlir və xərclər haqqında hesabatında göstərilir və mümkün ssuda zərərləri üzrə ehtiyatın yığılmış məbləği banklara və müştərilərə verilmiş ssudalar və avanslar hesabından çıxılır. Ehtiyatların rəhbərlik tərəfindən müəyyənləşdirilməsi Bankın əvvəlki təcrübəsinə, portfelin məlum və məxsus risklərinə, borc alanın ödəmə bacarığına təsir edən amillərə, təminatın təqribi dəyərinə və cari iqtisadi vəziyyətə əsaslanaraq hesablanır.

Nəzərə almaq lazımdır ki, mümkün ssuda zərərlərinin müəyyənləşdirilməsində rəhbərliyin ehtimalları tətbiq olunur. Müəyyən dövrlərdə, Bankın zərərləri, mümkün ssuda zərərlərinə qarşı yaradılmış ehtiyatlara nisbəti əhəmiyyətli ola bilər. Bununla belə, rəhbərlik ehtimal edir ki, mümkün ssuda zərələrinə qarşı yaradılan  ehtiyat ssuda portfelinə məxsus olan zərərlərini tam dəyərləndirir.

***Satışı mümkün olan qiymətli kağızlar –*** Satışı mümkün olan giymətli kağızlar qeyri-müəyyən müddətədək saxlanılması planlaşdırılan öhdəlik investisiyalardan ibarətdir. Bu növ qiymətli kağızlar öncədən alış qiyməti ilə qeyd olunur hansıki onların ədalətli dəyərinə yaxındır. Sonradan bu qiymətli kağızlar üzrə gəlir və zərər hesablarında daxil edilməklə və yığılmış kupon gəlirləri nəzərə alınmaqla yenidən qiymətləndirilir. Bank ona məxsus olan və satışı mümkün olan qiymətli kağızların ədalətli dəyərlə qiymətlərini hesablamaq üçün rəsmi bazar məzənnələrindən istifadə edir. Belə məzənnələrin mövcüd olmadığı halda rəhbərlik tərəfindən qiymətləndirilmə aparılır.

***Əsas vəsaitlər və qeyri-maddi aktivlər –*** Əsas vəsaitlər və qeyri-maddi aktivlər ilkin alış dəyəri ilə yığılmış aşınma və hər hansı digər bərpa dəyəri ehtiyatı çıxılmaqla qeydə alınır. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin aşınması onların iqtisadi faydalı dövründə dəyərinin silinməsini nəzərdə tutur və bərabər hissələrlə aşağıda göstərilmiş illik faiz dərəcələri ilə hesablanır:

| | |
|---|---:|
| Binalar | 2% |
| Nəqliyyat vasitələri | 25% |
| Kompyüter avadanlığı | 25% |
| Offis avadanlığı | 14% |
| Digər əsas vəsaitlər | 20% |
| Qeyri-maddi aktivlər | 10-20% |

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin dəyərləri hər balans tarixinə qiymətləndirilir və onların bərpa dəyərindən artıq olması hesablanılır. Hesablanmış dəyərin bərpa dəyərindən çox olduğu halda bu fərq aradan qaldırılır. Bərpa dəyəri müvafiq dövrlərdə qeydə alınır və digər inzibati və əməliyyat xərclərinə daxil edilir. Bərpa dəyərindən zərər qeydə alındıqdan sonra əsas vəsaitlərin yeni hesablanmış dəyəri, ondan qalıq dəyərini çıxmaqla (əgər varsa), bərabər hissələrlə qalan iqtisadi faydalı dövr ərzində gələcək köhnəlmə xərclərinə daxil edilir.

***Bərpa dəyərindən zərərlər –*** Əgər vəsaitin bərpa dəyəri onun balans dəyərindən azdırsa, balans dəyəri bərpa dəyərinədək azaldılır. Bu fərq bərpa zərəri olaraq yarandığı ildə xərc kimi gəlir və xərclər hesabatında qeyd olunur.

***Maliyyə lizinqi*** – Əsasən bütün risk və gəlir hallarını vəsait sahibinin üzərinə köçürür. Mülkiyyət hüquqi vəziyyətdən asılı olaraq dəyişilə və ya dəyişilməyə bilər. Vəsaitin maliyyə və ya istehsal lizinqi olması müqavilənin növündən deyil, əqdin iqtisadi mahiyyətindən asılıdır. Lizinq maliyyə lizinqi kimi qəbul olunur əgər:

- İcarə dövrünün sonunda vəsaitin mülkiyyət hüququ icarədara keçirsə;
- İcarədər imkan yarandığı tarixdə aktivi onun ədalətli dəyərindən kifayət qədər aşağı almaq imkanına malik olur. İcarənin əvvəlində belə bir imkanın yaranması yəqindir.
- İcarə mülkiyyət hüququnun dəyişilməsindən asılı olmayaraq vəsaitin iqtisadi faydalı dövrünün əsas hissəsini əhatə edir.
- İcarənin əvvəlində minimum icarə haqlarının cari dəyəri ən azından icarədə olan vəsaitin dəyəri qədərdir və;
- İcarədə olan vəsait əsas dəyişiklik edilmədən ondan yalnız icarədarın istifadə edə biləcəyi ixitisaslaşdırılmış təbiətə malikdir.

***Bank icarədar kimi –*** Bank maliyyə icarələrini icarə dövrünün əvvəlində icarəyə götürülən əmlakın ədalətli dəyərinə bərabər və ya ondan azdırsa minimum icarə haqlarının cari dəyərində balans hesabında aktivlər və öhdəliklər kimi qeydə alır. İcarə haqlarının cari dəyərini hesablayarkən faiz dərəcəsi olaraq məqsədyönlü olduğu halda icarədə nəzərdə tutulan faiz dərəcəsi, əks halda bankın özünün kredit dərəcəsi götürülür. Yaranan ilkin birbaşa xərclər əmlakın bir hissəsi kimi daxil edilir. İcarə haqlarının ödənilməsi maliyyə ödəmələri və cari öhdəliklərin azalması arasında bölüşdürülür. Maliyyə ödəmələri hər dövr üçün öhdəliyin qalan hissəsinə uyğun sabit faiz dərəcəsi yaradaraq icarə dövrü boyunca bölüşdürülür.

***Vergi sistemi –*** Mənfəət üzrə vergilər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun hesablanır. Təxirə salınmış vergilər, əgər varsa, aktivin gəlirə çevriləcəyi və ya öhdəliyin ödəniləcəyi dövrdəki vergi dərəcəsini tətbiq edərək balans hesabatında öhdəlik metodundan istifadə etməklə müxtəlif dövrlərdə maliyyə hesabatı və gəlir vergisi bəyannamələrindəki fərqlərə əsasən göstərilir. Müvəqqəti fərqlərdən yaranan hər hansı yubadılmış vergi öhdəlikləri bütünlüklə göstərilir. Təxirə salınmış vergi aktivləri onların aktiv kimi tanınması gözlənilən tarixdə zəruri məbləğdə tanınır.

Təxirə salınmış gəlir vergisi aktivi və öhdəliyi kimi xalis tanınır, əgər:

- Bank qeydə alınmış cari vergi aktivləri və cari vergi öhdəliklərini həyata keçirəcək təsiredici qanunu hüquqa malikdir.
- Bank bunları xalis qalıq əsasında və ya aktivi gəlirə çevrilməsini təmin etməklə eyni zamanda öhdəliyi təmin etmək niyyətindədir.
- Təxirə salınmış vergi aktivləri və vergi öhdəlikləri gələcək hər dövrdə nəzərə çarpacaq dərəcədə vergi öhdəliyi və vergi aktivlərinin təmin olunacağı və gözlənilən dövrdə bu vergilərin xalis məbləğdə ödənilməsi eyni əlaqədər vergi orqanı tərəfindən həyata keçiriləcəkdir.

Azərbaycanda Bankın fəaliyyətinə şamil ediləcək digər müxtəlif vergilər də mövcuddur. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi gəlir və xərclər hesabatında qeyd olunur.

***Banklardan və müştərilərdən alinmış depozitlər***– Banklardan və müştərilərdən alinmış depozitlərin məbləği əqdən yaranan xərcləri çıxarkən alış dəyəri ilə qeydə alınır. Nəticədə bu məbəğlər amortizasiya olunmuş dəyərlə göstərilir və xalis mədaxil ilə geri qaytarılacaq məbləğ arasındaki fərq borc depozitlərinin müddətləri dövründə cari faiz dərəcələri metodundan istifadə edərək gəlir və xərclər hesabatında qeyd olunur.

***Buraxılmış borc öhdəlikləri*** **–** Borc öhdəlikləri Bankın müştərilər üçün verdiyi depozit sertifikatlarından ibarətdir. Onlar adi müştəri və banklardan alınmış depozitlər ilə eyni prinsip əsasında hesablanır.

***Təminatlar***– təminatlar o zaman qeyd olunur ki,  Bank kecmiş hadisələr nəticəsində cari hüquqi və ya konstruktiv öhdəliyə malikdir və ehtimal olunur ki, gələcəkdə öhdəliyi təmin etmək üçün iqtisadi resurslara ehtiyac olsun və öhdəliyin dəyərini müəyyən etmək mümkün olsun.

***Səhmdar  kapitalı*** **–** Səhmdar kapitalı ilkin dəyərlə qeyd olunur. Vəsait şəkilində əlavə edilmiş səhmdar kapitalı əlavə olunduğu ilkin dəyərlə qeyd olunur.

***Təqaüd və digər gəlir öhdəlikləri*** **–** Bank Azərbaycan Respublikası təqaüd fondundan işçilərin əmək fəaliyyəti dövründə qazanılan əmək haqlarının muəyyən faiz nisbətində ödəmələr ayırır. Bundan əlavə  heç bir təqaüd razılaşması mövcud deyil. Belə təqaüdlər əmək haqqlar ödənilən zaman mənfəət və xərclər hesabatinda  əks olunur.

***Gözlənilməyən hadisələr*** **–** Resursların axını zamanı öhdəliyin təmin olunması tələb olunmasının mövcud olmadığından və dəqiq hesablama aparılacağı yəqinləşdirilmədiyi üçün bu kimi öhdəliklər maliyyə hesabatlarında qeyd olunmamışdır. Gözlənilməyən hadisələr nəticəsində yaranan aktivlər və mənfəət əldə edildiyi yaranması yaqinləşdirildikdə maliyyə hesabatlarında yalnız açıqlama olaraq qeyd olunmuşdur.

***Gəlir və xərclərin qeyd olunması*** **–** Faiz üzrə gəlir və xərclər cari gəlir metodu ilə və hesablama metodu ilə təyin edilərək yarandığı tarixə qeyd olunmuşdur. Borcların ödəmə müddəti 90 günü aşdıqda bu faiz gəlirlərinin qeyd olunması dayandırılır. Faiz gəlirlərinə həmçinin investisiya və alqı-satqı yönümlü qiymətli kağızlardan ticarətdən hesablanan gərirlər də daxildir. Komissiyalar və digər gəlirlər müvafiq əqdlər bağlandıqdan sonra gəlirlərə əlavə olunur.

***Xarici valyuta mübadiləsi*** **–** Xarici vayutada olan pul aktiv və öhdəlikləri balans hesabatında balans tarixinə alqı-satqı məzənnəsinə uyğun Azərbaycan manatı ilə qeyd olunmuşdur. Xarici valyuta ilə əməliyyatlar əqd bağlanan günə uyğun məzənnə ilə hesablanmışdır. Bu əməliyyatlardan yaranan gəlir və zərərlər xalis gəlir kimi xarici valyuta əməliyyatlarına əlavə olunmuşdur.

***Xarici valyuta məzənnələri*** **–** Bankda ilin sonunda maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələri istifadə olunmuşdur:

| | **31 Dekabr 2003** | **31 Dekabr 2002** |
|---|---|---|
| AZM/USD | 4,923 | 4,893 |
| AZM/EUR | 6,195 | 5,080 |
| AZM/RUR | 167 | 154 |

***Maliyyə aktivlərinin və öhdəliklərinin müxabirləşməsi*** – Bank qeydə alınmış maliyyə aktiv və öhdəliklərini müxabir etməyə  hüquqi cəhətdən təsiredici qüvvəyə malik olduğu dövrdə xalis şəkildə və ya eyni zamanda aktivləri əldə etmək və öhdəliklərini yerinə yetirmək hüququ olduqda maliyyə aktivləri və öhdəlikləri balansda xalis qeyd edilmişdir.

***Qruplaşdırma düzəlişləri*** – 31 dekabr 2003-cü il tarixinə olan təqdimat qaydaları ilə müqayisəli olmaq üçün 31 dekabr 2002-ci il tarixinə maliyyə hesabatına müəyyən qruplaşdırma düzəlişləri edilmişdir.

## 4. XALİS FAİZ GƏLİRİ

Xalis faiz üzrə gəlir aşağıdakılardan ibarətdir:

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| **Faiz gəliri** | | |
| Müştərilərə verilmiş ssudalar və avanslar üzrə faiz | 5,503,291 | 2,471,210 |
| Banklara verilmiş ssudalar və avanslar üzrə faiz | 12,213 | - |
| Öhdəlik kağızları üzrə faiz | 1,929 | - |
| Cəmi faiz gəliri | 5,517,433 | 2,471,210 |
| **Faiz xərci** | | |
| Müştəri hesabları üzrə faiz | 607,448 | 81,798 |
| Banklardan alınmış depozitlər üzrə faiz | 421,862 | 895,847 |
| Buraxılmış borc öhdəlikləri üzrə faiz | 362,933 | - |
| Maliyyə lizinq üzrə faiz | 9,848 | 39,077 |
| Cəmi faiz xərci | 1,402,091 | 1,016,722 |
| **Ssuda zərərlərinə qarşı ehtiyatın geri ödənilməsindən/(yaradılmasından) əvvəl xalis faiz gəliri** | **4,115,342** | **1,454,488** |

## 5. MÜMKÜN SSUDA ZƏRƏRLƏRİNƏ QARŞI EHTİYYAT

Ssuda zərərlərinə qarşı ehtiyat məbləğinin hərəkəti aşağıdakı kimi olmuşdur:

| | Müştərilərə verilmiş ssuda və avanslar |
|---|---|
| 31 dekabr 2001-ci il tarixinə (auditi aparılmayıb) | (1,724,323) |
| Ehtiyatın yaradılması (auditi aparılmayıb) | (595,939) |
| Aktivlərin silinməsi (auditi aparılmayıb) | 999,326 |
| 31 dekabr 2002-ci il tarixinə | (1,320,936) |
| Ehtiyatın geri ödənilməsi | 174,736 |
| 31 dekabr 2003-cü il tarixinə | (1,146,200) |

## 6. XARİCİ VALYUTA ƏMƏLİYYATLARI ÜZRƏ XALİS GƏLİR

Xarici valyuta əməliyyatları üzrə xalis gəlir aşağıdakılardan ibarətdir:

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| Xarici valyuta alqi-satqısı əməliyyatlarından xalis gəlir | 82,864 | 184,278 |
| Yenidən qiymətləndirmə üzrə xalis gəlir | 3,500 | 64,524 |
| **Cəmi xarici valyuta əməliyyatlari üzrə xalis gəlir** | **86,364** | **248,802** |

## 7. XİDMƏT VƏ KOMISYON HAQQI GƏLİRİ VƏ XƏRCİ

Xidmət və komisyon haqqı gəliri və xərci aşağıdakılardan ibarətdir:

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| **Xidmət və komisyon haqqı gəliri** | | |
| Valyuta satışı üzrə əməliyyatlar | 482,719 | 201,182 |
| Hesablaşmalar | 472,097 | 197,546 |
| Nəğd vəsaitlər üzrə əməliyyatlar | 430,717 | 156,737 |
| | 4,262 | 6,647 |
| Digər əməliyyatlar | 68,396 | 37,038 |
| **Cəmi xidmət və komisyon haqqı gəliri** | **1,458,191** | **599,150** |

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| **Xidmət və komisyon haqqı xərci:** | | |
| Hesablaşmalar | 146,368 | 114,143 |
| Plastik kartlar | 52,769 | 2,187 |
| Valyuta satışı üzrə əməliyyatlar | 7,029 | - |
| Nəğd vəsaitin alqı-satqısı | 5,855 | 6,784 |
| Digər əməliyyatlar | 2,660 | 9,433 |
| **Cəmi xidmət və komisyon haqqı xərci** | **214,681** | **132,547** |

## 8. ƏMƏLİYYAT XƏRCLƏRİ

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| Reklam və marketinq xərcləri | 1,442,533 | 491,207 |
| Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin köhnəlməsi | 692,249 | 223,372 |
| Əmək haqqı və mükafatlar | 638,708 | 156,622 |
| Rabitə xidmətləri | 301,605 | 76,419 |
| Mühafizə xidməti, təmir və bərpa xərcləri | 291,126 | 72,946 |
| Əmlakın mühafizəsi ilə bağlı xərclər | 204,375 | - |
| Komunal xərcləri | 203,594 | 47,669 |
| İşçilər üzrə digər xərclər | 183,002 | 251,784 |
| Sosial müdafiə fondu üzrə xərclər | 169,840 | 46,442 |
| Peşəkar xidmətlər | 167,344 | 80,735 |
| Mənfəət vergisindən başqa vergilər | 107,017 | 50,781 |
| Hüquqi məsləhətlər | 71,755 | 10 |
| Ezamiyyət xərcləri | 53,028 | - |
| Digər | 206,488 | 117,947 |
| **Cəmi əməliyyat xərcləri** | **4,732,664** | **1,615,934** |

## 9. MƏNFƏƏT VERGİSİ

Bank Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə təyin olunmuş vergi hesabatlarını hazirlayır və onların əsasında vergiləri ödəyir. Azərbaycan Respublikasının vergi qanunvericiliyinin tələbatları Beynəlxalq Maliyyə Hesabatı Standartlarından fərqlənə bilər. 31 dekabr 2003-cü və 2002-ci il tarixində bitmiş illər ərzində Azərbaycanda mənfəət üzrə vergi dərəcəsi müvafiq olaraq 25% və 27% təşkil etmişdir. 1 yanvar 2004-cü il tarixindən başlayaraq mənfəət vergisinin dərəcəsi 24% təşkil edir.

Vergi aktivləri və öhdəlikləri aşağıdakilardan ibarətdir:

| | **2003** | **2002** |
|---|---|---|
| Təxirə salınmış vergi aktivləri | 4,136 | 18,253 |
| **Vergi aktivləri** | **4,136** | **18,253** |
| | | |
| Cari vergi öhdəlikləri | 296,270 | 44,147 |
| **Vergi öhdəlikəri** | **296,270** | **44,147** |

Yerli qanunvericiliyin çərçivəsində müəyyən xərclərin vergi bazasına aid olmamasına görə Banka müəyyən daimi vergi fərqləri təsir edirlər.

Təxirə salınmış vergilər maliyyə və vergi hesabatları üçün nəzərdə tutulmuş cari aktivlərin və öhdəliklərin məbləğlərinin arasında olan müvəqqəti fərqlərin ümumi vergi təsirini əks etdirirlər. 31 dekabr 2003-cü və 2002-ci il tarixinə müvəqqəti fərqlər əsasən gəlirlərin və xərclərin tanınma üsullarına və müəyyən aktivlərin qeyd edilmiş dəyərlərinə aiddirlər.

31 dekabr 2003-cü və 2002-ci il tarixinə vergilər üzrə müvəqqəti fərglər aşağıdakılardan ibarət olmuşdur:

| | **2003** | **2002** |
|---|---|---|
| Təxirə salınmış aktivlər: | | |
| Əsas vəsaitlər | 37,748 | - |
| Müştərilərə verilmiş ssudalar | - | 54,242 |
| Digər öhdəliklər | - | 81,544 |
| **Cəmi təxirə salınmış aktivlər** | **37,748** | **135,786** |

| | **2003** | **2002** |
|---|---|---|
| Təxirə salınmış öhdəliklər: | | |
| Əsas vəsaitlər | - | 52,988 |
| Qeyri-maddi aktivlər | 20,516 | 9,787 |
| **Cəmi təxirə salınmış öhdəliklər** | **20,516** | **62,775** |
| | | |
| Təxirə salınmış xalis aktivlər | 17,232 | 73,011 |
| | | |
| Yerli gəlir vergisi dərəcəsi ilə təxirə salınmış xalis vergi aktivləri (24% 2003-cü ildə, 25% 2002-ci ildə) | **4,136** | **18,253** |

31 dekabr 2003-cü və 2002-ci il tarixinə olan vergi xərcləri və mühasibat mənfəəti/(zərəri) arasında əlaqə aşağıda izah olunur:

| | 2003 | 2002 (auditi aparılmayıb) |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəl mənfəət/ (zərər)** | **887,288** | **(41,980)** |
| Yerli vergi dərəcəsi | 25% | 27% |
| Yerli vergi dərəcəsi ilə nəzəri vergi məbləği | 221,822 | (11,335) |
| Müvəqqəti fərqlərin təsiri | (579,272) | (76,061) |
| Mənfəət vergisi dərəcəsində dəyişmənin təsiri | (172) | (1,460) |
| **Mənfəət vergisi xərci** | **357,622** | **63,266** |
| Cari mənfəət vergisi üzrə xərc | 343,505 | 62,980 |
| Təxirə salınmış vergi xərci | 14,117 | 286 |
| Mənfəət vergisi üzrə xərc | 357,622 | 63,266 |

| **Təxirə salınmış mənfəət vergisi aktivləri** | **2003** | **2002** |
|---|---|---|
| Dövrün əvvəlinə | 18,253 | 18,539 |
| Taxirə salınmış mənfəət vergisinin azalması | (14,117) | (286) |
| Dövrün sonuna | 4,136 | 18,253 |

## 10. NƏĞD PUL VƏ AZƏRBAYCAN RESPUBLIKASI MILLI BANKINDA OLAN NƏĞD VƏSAİTLƏR

Nəğd pul və azərbaycan respublikasi milli bankinda olan nəğd vəsaitlər aşağıdakilardan ibarətdir:

| | 2003 | 2002 |
|---|---|---|
| Nəğd pul | 3,441,161 | 1,011,304 |
| Azərbaycan Respublikası Milli Bankında qalıq vəsaiti | 3,509,994 | 355,259 |
| **Nəğd pul və Azərbaycan Respublikası Milli Bankında qalıq vəsaitin cəmi** | **6,951,155** | **1,366,563** |

31 dekabr 2003-cü və 2002-ci il tarixinə ARMB-da saxlanılan vəsaitlərin qalıqları ARMB tərəfindən tələb olunan müvafiq olaraq 2,115,711 min manat və 320,933 min manat həcmində minimal ehtiyat rezervləri daxildir.

Nəğd vəsaitin hərəkəti haqqında hesabatın məqsədləri üçün nəğd pul və ona bərabər tutulan vəsaitlər aşağıdakilardan ibarətdir:

| | 2003 | 2002 |
|---|---|---|
| Nəğd pul və ARMB-da qalıq vəsaitləri | 6,951,155 | 1,366,563 |
| AÖTT ölkələrində banklara verilmiş ssudalar və avanslar | 1,339,374 | 32,504 |
| | **8,290,529** | **1,399,067** |
| ARMB-da saxlanılan minimal ehtiyat depoziti çıxılmaqla | (2,115,711) | (320,933) |
| **Nəğd pul və ona bərabər tutulan vəsaitin cəmi** | **6,174,818** | **1,078,134** |

## 11. BANKLARA VERİLMİŞ SSUDALAR VƏ AVANSLAR

Banklara verilmiş ssudalar və avanslar aşağıdakilardan ibarətdir:

| | 2003 | 2002 |
|---|---|---|
| Banklara verilmiş avanslar | 2,077,577 | 2,809,522 |
| Mümküm ssuda zərərlərinə qarşı ehtiyat çıxılmaqla | - | - |
| **Banklara verilmiş ssudalar və avansların cəmi** | **2,077,577** | **2,809,522** |

31 dekabr 2003-cü il tarixinə, banklara verilmiş avanslara, plastik kartlarla əməliyyatların aparılması üçün təminat depoziti kimi Azərbaycan Respublikası Beynəlxalq Bankında hesaba qoyulmuş 24,615 min manat daxildir.

## 12. MÜŞTƏRİLƏRƏ VERILMIŞ SSUDALAR VƏ AVANSLAR

Müştərilərə verilmiş ssudalar və avanslar aşağıdakilardan ibarətdir:

| | 2003 | 2002 |
|---|---|---|
| Verilmiş ssudalar | 44,096,387 | 14,374,986 |
| Müştərilərə verilmiş ssudalar və avanslar üzrə hesablanmış faiz | 1,256,438 | 34,961 |
| | **45,352,825** | **14,409,947** |
| Mümkün ssuda zərərləri üzrə ehtiyat çıxmılmaqla | (1,146,200) | (1,320,936) |
| **Müştərilərə verilmiş ssudalar və avansların cəmi** | **44,206,625** | **13,089,011** |

| | 2003 | 2002 |
|---|---|---|
| Avadanlıqla təmin olunmuş ssudalar | 10,608,094 | 4,650,533 |
| Əmlak ilə təmin olunmuş ssudalar | 10,227,170 | 2,640,151 |
| Korporativ təminat ilə təmin olunmuş ssudalar | 8,809,830 | 2,777,447 |
| Nəğd pul və depozit sertifikatları ilə təmin olunmuş ssudalar | 4,309,979 | - |
| Dövriyyədə olan əmtəə ilə təmin olunmuş ssudalar | 1,982,592 | - |
| Digər təminatlı ssudalar | 6,926,643 | 353,301 |
| Təminatsız ssudalar | 1,232,079 | 3,953,554 |
| Müştərilərə verilmiş ssudalar və avanslar üzrə hesablanmış faiz | 1,256,438 | 34,961 |
| | **45,352,825** | **14,409,947** |
| Mümkün ssuda zərərləri üzrə ehtiyat çıxılmaqla | (1,146,200) | (1,320,936) |
| **Müştərilərə verilmiş ssudalar və avansların cəmi** | **44,206,625** | **13,089,011** |

31 dekabr 2003-cü və 2002-ci il tarixinə mümkün ssuda zərərlərinə qarşı ehtiyat məbləğlərinin dəyişməsi 5-ci Qeyddə izah olunmuşdur.

31 dekabr 2003-cü il tarixinə Bankın müştərilərindən 3-nə verilmiş 19,509,603 min manat həcmində ümumi ssuda məbləği və 31 dekabr 2002-ci il tarixinə müştərilərindən 4-nə verilmiş 9,016,936 min manat həcmində ümumi ssuda məbləği Bankın kapitalının 10%-dən artıq olmuşdur.

31 dekabr 2003-cü və 2002-ci il tarixinə müştərilərə verilmiş ssudalar və avanslara müvafiq olaraq 163,492 min manat və 360,160 min manat həcmində faiz hesablanmamış ssudalar daxil olmuşdur.

| İqtisadi sahələr üzrə təhlil | 2003 | 2002 |
|---|---|---|
| Ticarət | 14,012,100 | 1,223,251 |
| İstehsalat | 11,423,900 | 5,004,792 |
| Tikinti | 9,790,200 | 2,784,202 |
| İstehlak | 6,860,387 | 3,780,639 |
| Kənd təsərrüfatı | 1,962,900 | - |
| Digər | 46,900 | 1,582,102 |
| Müştərilərə verilmiş ssudalar və avanslar üzrə hesablanmış faiz | 1,256,438 | 34,961 |
| | **45,352,825** | **14,409,947** |
| Mümkün ssuda zərərləri üzrə ehtiyat çıxılmaqla | (1,146,200) | (1,320,936) |
| **Müştərilərə verilmiş ssudalar və avansların cəmi** | **44,206,625** | **13,089,011** |

## 13. İNVESTİSİYA YÖNÜMLÜ QİYMƏTLİ KAĞIZLAR

İnvestisiya yönümlü qiymətli kağızlar aşağıdakilardan ibarətdir:

| | 2003 | 2002 |
|---|---|---|
| Satışı mümkün olan borc öhdəliklər | 2,000,000 | - |
| Satışı mümkün olan qiymətli kağızlar | 3,200,000 | 200,000 |
| İnvestisiya yönümlü qiymətli kağızların cəmi | **5,200,000** | **200,000** |

Satışı mümkün olan qiymətli kağızlar aşağıdakilardan ibarətdir:

| | Nominaldan faiz | 2003 | Nominaldan faiz | 2002 |
|---|---|---|---|---|
| **Satışı mümkün olan borc öhdəlikləri** | | | | |
| Maliyyə Nazirliyinin uzunmüddətli istiqrazlar | 5% | 2,000,000 | - | - |
| **Satışı mümkün olan borc öhdəliklərin cəmi** | | **2,000,000** | | **-** |

Uzunmüddətli dövlət istiqrazları Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən buraxılan ödəmə müddəti 20 il təşkil edən Azərbaycan manatı ilə ifadə olunan faizli qiymətli kağızlardır.

Satışı mümkün olan qiymətli kağızlar (müəssisələrin kapitalına qoyulmuş) aşağıdakilardan ibarətdir:

| Təşkilatın adı | Təsis olunduğu ölkə | Sahibkarlıq payı | 2003 | 2002 |
|---|---|---|---|---|
| AtaHoldinq | Azərbaycan | 10% | 1,500,000 | - |
| İnterservis | Azərbaycan | 10% | 700,000 | - |
| AtaTurizm | Azərbaycan | 10% | 300,000 | - |
| AtaSənaye | Azərbaycan | 10% | 300,000 | - |
| Bakı Fond Birjası | Azərbaycan | 5.55% | 300,000 | 200,000 |
| Ata İnşaat | Azərbaycan | 10% | 100,000 | - |
| **Satışı mümkün olan qiymətli kağızların cəmi** | | | **3,200,000** | **200,000** |

Ataholding şirkəti Bankın təsisçisidir. 31 dekabr 2003-cü il tarixə Ataholding şirkəti Bankın səhmdar kapitalının 76% payçısıdır.

## 14. YIĞILMIŞ KÖHNƏLMƏ ÇIXILMAQLA ƏSAS VƏSAİTLƏR VƏ QEYRİ-MADDİ AKTİVLƏR

| | Binalar | Kompyuter avadanlığı | Nəqliyyət vasitələri | Ofis avadanlığı | Digər əsas vəsaitlər | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **İlkin dəyərlə** | | | | | | | |
| 31 dekabr 2002 il tarixinə | 3,846,182 | 341,691 | 396,218 | 1,684,357 | 60,239 | 126,448 | 6,455,135 |
| Daxil olma | 1,298,394 | 333,450 | 387,800 | 2,084,672 | 76,652 | 122,552 | 4,303,520 |
| Çıxma | - | (40,102) | (35,425) | (87,649) | (3,979) | - | (167,155) |
| Əsas vəsaitlərin kateqoriyaları arasında transferlər | - | (5,497) | - | 1,518 | 3,979 | - | - |
| 31 dekabr 2003-cü il tarixinə | 5,144,576 | 629,542 | 748,593 | 3,682,898 | 136,891 | 249,000 | 10,591,500 |
| **Yığılmış köhnəlmə** | | | | | | | |
| 31 dekabr 2002 il tarixinə | 282,344 | 72,160 | 140,815 | 114,097 | - | 19,575 | 628,991 |
| İl ərzində xərc | 84,835 | 113,302 | 134,352 | 317,723 | 19,643 | 22,394 | 629,249 |
| Çıxma | - | (37,192) | (35,607) | (89,670) | (665) | - | (163,134) |
